**Bank olmayan kredit təşkilatı "AzKredit" Açıq Səhmdar Cəmiyyəti**

Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli, təmin edilməmiş, Sənədsiz, adlı istiqrazların

# İNFORMASİYA MEMORANDUMU 2022

Bu İnformasiya memorandumunda olan məlumatlar 15 may 2015-ci il tarixli Azərbaycan Respublikasının Qiymətli Kağızlar bazarı haqqında Qanununa uyğun olaraq açıqlanmışdır.

**Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu İnformasiya Memorandumunda olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.**

İnformasiya memorandumunun tərtib edilməsində iştirak edən şəxslər və İnformasiya memorandumunda təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu İnformasiya memorandumunu tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların və İnformasiya memorandumuna daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**06.12.2022-ci il**

**Bank Olmayan Kredit Təşkilatı "AzKredit" ASC-nin İdarə Heyətinin sədri** — **Ceyhun Əliyev**

**Bank Olmayan Kredit Təşkilatı "AzKredit" ASC-nin Baş Mühasibi** — **Amil Musayev**

AzKredit

MÜNDƏRİCAT

1 - Bəyanat---2
2 - İnformasiya memorandumu---4
3 - İstiqrazların emitenti barədə məlumat---4
4 - İstiqrazlar barədə tələb olunan məlumat---8

AzKredit

**İNFORMASİYA MEMORANDUMU**

**XƏBƏRDARLIQ**

**BU SƏNƏD İNFORMASİYA MEMORANDUMUNUN GİRİŞ HİSSƏSİDİR. İSTİQRAZLARA İNVESTİSİYA ETMƏK BARƏDƏ HƏR HANSI BİR QƏRAR VERMƏZDƏN ƏVVƏL BU İNFORMASİYA MEMORANDUMUNU OXUDUQDAN SONRA HƏYATA KEÇİRİLMƏLİDİR. İNFORMASİYA MEMORANDUMUNDA OLAN MƏLUMATLARIN YANLIŞ, QEYRİ-DƏQİQ, ZİDDİYYƏTLİ OLDUĞU VƏ YA QİYMƏTLİ KAĞIZLARA İNVESTİSİYA EDİB-ETMƏMƏK BARƏDƏ QƏRAR VERƏN İNVESTORLARA KÖMƏK ETMƏK MƏQSƏDİLƏ ƏSAS İNFORMASİYANIN VERİLMƏDİYİ ZAMAN İNFORMASİYA MEMORANDUMUNU HAZIRLAMIŞ ŞƏXSLƏR MÜLKİ MƏSULİYYƏTİ DAŞIYIRLAR.**

| 1. Emitent haqqında məlumat | |
|---|---|
| 1.1. emitentin tam adı | Bank Olmayan Kredit təşkilatı "AzKredit" Açıq Səhmdar Cəmiyyəti (Bundan sonra - Emitent) |
| 1.2. emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə | Hüquqi ünvan: Açıq səhmdar Cəmiyyəti, Cəmiyyətin hüquqi ünvanı və olduğu yer: Nizami rayonu, M.X.Şərifli küçəsi, ev 1, mənzil 34, Faktiki ünvan: AZ1002, Bakı, Azərbaycan Nərimanov rayonu, Ə.Qayıbov küçəsi, 10Q, STN Biznes Mərkəzi, AZ1029, Bakı Azərbaycan |
| 1.3. emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri | Emitent kredit verilməsi üzrə fəaliyyət göstərən bank olmayan kredit təşkilatıdır. Hazırda kredit təşkilatlarının fəaliyyətinə təsir edən əsas faktorlar valyuta riskləri və portfel keyfiyyəti, kreditor borcları kimi faktorlardır.<br>Emitentin kredit portfeli informasiya memorandumu tərtib olunan tarixə kimi milli valyutada formalaşdırılmışdır. Həmçinin kredit portfelinin 90 faizindən az olmayan hissəsi təminatlı kreditlərdən ibarətdir. Emitentin hər hansı bank qarşısında və ya səhmdarları qarşısında borc öhdəliyi yoxdur. Eyni zamanda Emitentin kredit portfelində problemli kredit mövcud deyildir. |
| 1.4. emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd | Mövcud deyil |
| 1.5. gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd | Mövcud deyil |

| | |
|---|---|
| 1.6. audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri | "NEXİA EA" QSC Audit Şirkətinin 31.12.2021-ci il tarixli rəyi: 31.12.2021-ci il və həmin tarixdə bitən il üzrə ilkin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından MHBS-in 1 saylı MHBS əsasında necə tətbiq edilməsini, o cümlədən 31 dekabr 2022-ci il tarixinə MHBS-ə uyğun maliyyə hesabatlarının ilk tam toplusu rəhbərlik tərəfindən hazırlandığı zaman qüvvədə olması gözlənilən standart, şərhlər və qəbul edilməsi gözlənilən qaydalar haqqında rəhbərliyin fərziyyələrini təsvir edən Qeyd 3-də göstərilən əsasa uyğun olaraq hazırlanmışdır. |

1.7. son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri

| Azərbaycan manatı ilə | 31 dekabr 2021 | 31 dekabr 2020 (audit aparılmamışdır) | 31 dekabr 2019 (audit aparılmamışdır) |
|---|---|---|---|
| Aktivlər | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,446,809 | 931,631 | 44,039 |
| Ticarət hesabında olan pul vəsaitləri | 129,599 | | 137,777 |
| Borc qiymətli kağızlara investisiyalar | | | |
| Pay qiymətli kağızlara investisiyalar | | | |
| Ticarət və digər debitor borclar | 43,499 | 124,141 | |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödənişlər | | | |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 16,407 | 10,082 | |
| Əmlak və avadanlıqlar | 342,926 | 1719 | 5,272 |
| Qeyri-maddi aktivlər | | | |
| CƏMİ AKTİVLƏR | **1,979,240** | **1,067,573** | **187,088** |
| ÖHDƏLİKLƏR | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | | | |
| Sair öhdəliklər | 159,060 | 96,236 | 150,747 |
| Cari mənfəət vergisi öhdəliyi | 229,581 | 129,195 | |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | | | |
| CƏMİ ÖHDƏLİKLƏR | **388,641** | **225,431** | **150,747** |
| KAPİTAL | | | |
| Nizamnamə kapitalı | 300,000 | 300,000 | 0 |

AzKredit

| | | | |
|---|---|---|---|
| Kapital qoyuluşu | | | |
| Yığılmış zərər | | | |
| Qrupun təsisçilərinə aid olan kapital | 1,290,599 | 542,142 | 36,341 |
| Nəzarət olunmayan iştirak payı | | | |
| CƏMİ KAPİTAL | **1,590,599** | **842,142** | **36,341** |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | **1,979,240** | **1,067,573** | **187,088** |

**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat** - emitentin fəaliyyətində heç bir dəyişiklik olmamışdır.

| | |
|---|---|
| 1.8. emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr | Azərbaycan Respublikasının Mərkəzi Bankının uçot faiz dərəcələri Emitentin ödəmə qabiliyyətinə təsir edə bilər. |
| 1.9. emitentin əsas fəaliyyətlərinin təsviri | Emitentin əsas fəaliyyəti kredit verilməsidir. Həmin fəaliyyət müstəsna fəaliyyətdir. Kredit təşkilatı 3-48 ay müddətinə (12 aya qədər güzəşt müddəti) 23-29% faiz darəcəsi olmaqla 600-30000 AZN arası kreditlər təklif edir.<br>Eyni zamanda kredit təşkilatı tərəfindən aşağıdakı kredit növləri təklif olunur:<br>Biznes krediti<br>İstehlak krediti<br>Ailə krediti<br>Lombard krediti<br>Ekspress kredit<br>Startap krediti |

| | |
|---|---|
| 1.10. mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti | Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir. Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir. |
| **2. İstiqrazlar haqqında məlumat** | |
| 2.1. istiqrazların növü | Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar |
| 2.2. istiqrazların valyutası | Azərbaycan manatı |
| 2.3. istiqrazların təsbit olunan məhdudiyyətlər | Məhdudiyyət nəzərdə tutulmamışdır |
| 2.4. istiqrazların təsbit olunmuş hüquqların təsviri | İstiqrazın mülkiyyətçisi aşağıdakı hüquqlara malikdir: İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;<br>Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərini vaxtından əvvəl ödənilməsini Emitentden tələb etmək;<br>Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar. |
| 2.5. istiqrazların faiz dərəcəsi • İstiqrazlann faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti • Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri | İstiqrazların faiz dərəcəsi 8 % təşkil edir. Istiqrazlar üzrə ödənilməli olan faizlər 90 gündən bir ödəniləcəkdir. Ödəniş tarixi qeyri iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödəniləcəkdir.<br>İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) təqvim ili təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcəkdir. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. |

AzKredit

| | |
|---|---|
| 2.6. istiqrazların geri satın alınma şərtləri | İstiqrazların geri satın alınması nəzərdə tutulmayıb |
| 2.7. gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi | TF=(N*D*G/360)/100<br>Burada,<br>TF- Bir istiqraz üzrə toplanmış faizlər;<br>N- Bir istiqrazın nomonal dəyəri – 1000 manat;<br>D - İstiqrazların illik gəlirlilik dərəcəsi - 8;<br>G – İstiqrazların faiz ödəniş dövrünün müddəti – 90 gün |
| 2.8. istiqrazlann mülkiyyətçisinin təmsilçisinin adı | Nəzərdə tutulmayıb. |
| 2.9. istiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri | İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət istiqrazların Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.<br>"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti VÖEN-i: 1700262271<br>Dövlət qeydiyyatının tarixi və nömrəsi: 27.08.1997-ci il, № 3<br>"Bakı Fond Birjası" QSC müddətsiz lisenziyaya malikdir.<br>Fəaliyyət istiqaməti- Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsidir. Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-nin "Bakı Fond birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir. |
| 2.10. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları | valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;<br>faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;<br>inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;<br>likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;<br>əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri; |

AzKredit

| | |
|---|---|
| | hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;<br>kredit riski - borcalanın öhdəliklərini yerinə bilməməsindən meydana gələn itki riskləri;<br>təbii - insan fəaliyyatindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan,<br>qasırğa, ildırım və s. risklər); xarici hadisələrdən meydana gələn itki riskləri; |
| 2.11. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları; | Bazar konyukturunun ani dəyişməsi |

| | |
|---|---|
| 2.12. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi | Təklifin səbəbi: əlavə vəsaitlərin cəlb edilməsi, mənfəətin artırılmasıdır. |
| 2.13. təklifin şərtlərinin təsviri; | İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. İstiqrazlar məhdudiyyət olmadan bütün fiziki və hüquqi şəxslərə təklif olunacaqdır. İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında " Qaydaların 3.12-ci bəndinə əsasən, istiqrazların yerləşdirilməsinin başlanılması tarixinə ən azı 2 iş günü qalmış anderayter "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndəriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır.<br>İstiqrazlar rəqabətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. Təqdim oluna biləcək sifarişin aşağı həddi istiqrazın nominal dəyərinə uyğun olaraq 1000 (bir min) manat təyin edilir. Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları yalnız rəqabətli sifarişlər təqdim edirlər, qeyri-rəqabətli sifarişlərin təqdim olunmasına yol verilmir. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir. Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir. Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən və təyin edilmiş nominal qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır.<br>İstiqrazlar üzrə hesablaşma T+0 rejimində, yəni hərrac günü baş tutacaqdır. İstiqrazların alınması üçün nəzərdə tutulmuş pul vəsaitləri investorlar tərəfindən müştərisi olduğu |

| | |
|---|---|
| | İnvestisiya Şirkətinin hesablaşma agentinin bank hesabına hərrac günündən gec olmayaraq köçürülməlidir. Hərracın keçirilməsi tarixi Anderrayter tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.afi.az) açıqlanır; |
| 2.14. emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat | **Fond birjası**<br>Emissiya prosesinde iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.<br>BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaması və Daxili Qaydaları ilə tənzimlənir.<br>**Mərkəzi depozitar**<br>Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prossesində MDM-in əsas vəzifəsi istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılmasıdır. Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.<br>**Anderrayter**<br>"İstiqrazlar "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyəti (Ünvan: Bakı şəhəri, Babək prospekti, Ələddin Quliyev küçəsi 11/31. Lisenziya n- 08796, 09.01.2016-cı il ) investisiya şirkəti vasitəsilə öhdəlik götürülmədən yerləşdirilir.Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil. |
| 2.15. istiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği | İstiqraz alıcısının ödəməli olduğu vergi məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsi ilə tənzimlənir.<br>Xərclər isə Bakı Fond Birjasının komissiya haqqı, investisiya şirkətinin komissiya haqqı, depo hesabın açılması üçün komissiya haqqı və hesablaşma agentinə ödəniş zamanı bankın komissiya haqqından ibarətdir. |

| | |
|---|---|
| 2.16. Əlavə məlumat | Emitentin audit olunmuş maliyyə hesabatları ilə aşağıdakı ünvanlardan tanış ola bilərsiniz: https://banco.az/az/news/azkredit-bokt-audit-hesabatini-aciqladi |